# CÜMHURİYYƏTİMİZİN ƏKS-SƏDASI

**Müsahibimiz Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasovdur.**

**- Samir müəllim, bildiyiniz kimi, Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən 2018-ci ilin ölkəmizdə "Cümhuriyyət ili" elan edilməsi ilə əlaqədar Azərbaycanla yanaşı, dünyanın bir sıra ölkələrində çoxsaylı tədbirlər keçirilir. Mədəniyyətimizi Orta Asiyada təbliğ edən Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi bu istiqamətdə hansı işləri, tədbirləri həyata keçirir?**

- Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2010-cu il 27 sentyabr tarixində Özbəkistana səfəri zamanı açılıb. Mədəniyyətimizin Özbəkistanda fəal təbliği və təşviqi ilə məşğuluq. Əlbəttə, sözügedən sərəncamın icrası məqsədilə Mədəniyyət Mərkəzimizin Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2018-ci il üzrə təsdiq olunmuş iş planının ilk bölməsi Xalq Cümhuriyyətinə həsr olunmuş tədbirlərdir.

İlk tədbir kimi, Özbəkistan Sənət və Mədəniyyət İnstitutunda "Azərbaycan Mədəniyyəti günü" keçirilib və bununla əlaqədar bütöv bir gün Azərbaycan mədəniyyətinə həsr edilib.

"Azərbaycan Mədəniyyəti günü" çərçivəsində institutda korifey bəstəkar Qara Qarayevin adını daşıyan Azərbaycan Mədəniyyəti və İncəsənəti Mərkəzinin açılışı olub. Mərkəz qardaş ölkədə Azərbaycan mədəniyyətini, musiqi sənətini geniş təbliğ edəcək və xalqlarımız arasında dostluq körpüsü rolunu oynayacaqdır. Qeyd edək ki, Mərkəzdə mədəniyyətin müxtəlif sahələrinə dair açıq dərslər keçiriləcək, tələbələr üçün Azərbaycan bədii filmləri, milli mədəniyyətimiz, musiqimizə dair görüşlər və tədbirlər reallaşdırılacaqdır.



"Azərbaycan Mədəniyyəti günü" çərçivəsində Özbəkistan Sənət və Mədəniyyət İnstitutu ilə əməkdaşlığa dair Memorandum da imzaladıq. Memoranduma əsasən, tərəflər mədəniyyətin müxtəlif sahələrinə dair əməkdaşlıq edəcək, ölkələr arasında təcrübə mübadiləsini həyata keçirəcəklər.

"Azərbaycan Mədəniyyəti günü"nün rəsmi açılış mərasimində çıxış edənlər zəngin dövlətçilik ənənələrimizdən, Azərbaycan Cümhuriyyətinin xalqın istiqlal ideyalarının yaşadılmasında rolundan danışıblar.




Tədbirlərdə Azərbaycan Xalq Cümhuriyyətinə dair sənədli ekran əsəri, milli mədəni irsimiz, habelə Azərbaycanın Qarabağ bölgəsində və digər işğal olunmuş torpaqlarında tarixi abidələrə dair sənədli film nümayiş etdirilib.

Bədii hissədə Özbəkistanın Mədəniyyət və Sənət İnstitutunun tələbələri Qarabağın milli geyimlərini nümayiş etdiriblər. Qeyd edək ki, Qarabağ şikəstəsinin sədaları altında nümayiş etdirilən geyimlər Azərbaycan Mədəniyyət Mərkəzinin kolleksiyasına aiddir.

**- Azərbaycan Xalq Cümhuriyyətinin təbliği, bu barədə özbək yeniyetmə və gənclərin məlumatlandırılması, habelə onların xalqımızın istiqlal ideyalarına, həyata keçirilən islahatlara münasibətləri hansı səviyyədədir?**

- Əlbəttə, xalqımızın istiqlal ideyaları, dövlətçilik ənənələri sahəsində əldə etdiyi nailiyyətlərin dünyaya çatdırılması olduqca vacib məsələlərdəndir.

Azərbaycan Mədəniyyət Mərkəzi bu il özbək yeniyetmələri və gəncləri arasında "Şərqin ilk parlayan ulduzu – Azərbaycan Xalq Cümhuriyyəti – 100" adlı esse yazı müsabiqəsi elan edib. Esse yazıda əsasən 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin əldə etdiyi uğurlar, Azərbaycanın dövlətçilik və müstəqillik tarixində oynadığı müstəsna rol, həyata keçirilən böyük islahatlar və bu Cümhuriyyətin gələcəkdəki müasir Azərbaycanın müstəqilliyinə, onun inkişafına təsiri və s. əsas mövzu olaraq müəyyənləşdirilib.

Esse yazıda xüsusilə 100 il əvvəl Cümhuriyyətin elan edilməsi, onun Azərbaycan xalqının milli azadlıq mübarizəsinin qanunauyğun nəticəsi kimi dərin tarixi köklərə malik milli dövlətçilik ənənələrinin davamı olaraq əks etdirilməsi, Cümhuriyyətin xalqımızın milli özünüdərk, öz müqəddəratını təyin etməyə qadirliyini əyani şəkildə bütün dünyaya nümayiş etdirdiyinin faktlarla göstərilməsi əsas şərt kimi qoyuldu. Müsabiqəyə cari ilin may ayının 20-də yekun vurulmuşdu, qaliblər Mədəniyyət Mərkəzinin xüsusi mükafatları və fəxri diplomları ilə təltif olundular. Ən yaxşı esse mükafatına layiq görülən yazı Mədəniyyət Mərkəzinin Azərbaycan tarixi muzeyindəki Azərbaycan Xalq Cümhuriyyətinə aid guşəyə yerləşdirildi və daimi sərgiləncəkdir.

Cari ilin iyun ayında Bakıda keçiriləcək Azərbaycan Cümhuriyyəti və Qafqaz İslam Ordusunun 100 illiyinə həsr olunmuş elmi simpoziumda Özbəkistanın aparıcı universitetlərinin rəhbərlərinin iştirakı məsələlərini də müzakirə etmişik. Sözügedən tədbirdə Özbəkistanın nüfuzlu universitetlərinin rektorlarının iştirakının təşkili məsələsi Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən həyata keçiriləcəkdir.

Qeyd edim ki, mütəmadi olaraq il ərzində Mədəniyyət Mərkəzimiz tərəfindən paytaxt Daşkənddə, habelə regionlarda keçirilən bütün tədbirlərdə Azərbaycan Xalq Cümhuriyyəti, onun ideyaları, xalqımızın istiqlal yolunda əldə etdiyi nailiyyətlər geniş təbliğ olunur.

**- Bu günə qədər Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı ən yaddaqalan layihə sizcə hansıdır?**

- Özbəkistanın Respublika Sarayı – Türküstanda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibəti ilə möhtəşəm Dostluq konsertinin təşkilinə xüsusi hazırlaşmışdı. Hesab edirəm ki, bu, çox möhtəşəm və maraqlı bir bədii tədbir oldu.

Konsert proqramında Özbəkistanın dünya şöhrətli musiqi qrupu – gənclərdən ibarət Simfonik orkestri, dirijor – Özbəkistanın Əməkdar artisti Kamoləddin Urunbayev və Azərbaycanın Əməkdar artisti, 2017-ci il "Şərq təranələri" Beynəlxalq Musiqi Festivalının qran-pri mükafatçısı, tanınmış tarzən Sahib Paşazadə çıxış ediblər.

Proqram bizim tərəfimizdən tərtib olunmuşdu və konsert proqramında Azərbaycanın və dünya musiqisinin inciləri sayılan Üzeyir Hacıbəylinin, Qara Qarayevin, Fikrət Əmirovun, Vasif Adıgözəlovun, Fərhad Bədəlbəylinin əsərləri ifa olundu. "Koroğlu" uvertürası ilə başlanan konsertdə "Alban rapsodiyası", "Min bir gecə", "Sarı gəlin", "Çahargah rapsodiyası", "Qərənfil", "Şuşa" və başqa əsərlər səsləndirildi. Mən buradan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə öz təşəkkürümü bildirirəm. Sözügedən əsərlərin not yazılarının əldə olunması və azərbaycanlı tanınmış tarzən Sahib Paşazadənin iştirakında bizə dəstək göstərildi.

Türküstan Sarayında keçirilən konsert proqramında Özbəkistan səhnəsinin tanınmış ulduzları – Nəsibə Abdullayeva, Masuma Boltabaeva, Erkin Ramazanov kimi sənətçilərin orkestr ilə ifaları zəngin təəssürat doğurdu.

Konsertə maraq çox böyük idi. Tədbirdə qardaş ölkənin dövlət və hökumət nümayəndələri, elm, mədəniyyət, xadimləri, ictimaiyyət nümayəndələri, səfirlər, diplomatlar, jurnalistlər, yerli azərbaycanlıların iştirakı ona əlavə dəyər qazandırmışdı.

Bundan başqa, Türküstan Sarayının geniş giriş foyesində "Şərqin ilk parlayan ulduzu – Azərbaycan Xalq Cümhuriyyəti – 100" adlı sərgi, habelə zəngin mədəniyyətimizə dair ekspozisiya da böyük maraqla qarşılandı. Sərgidə Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən ölkəmizin tarixini, Azərbaycan Xalq Cümhuriyyətini, mədəniyyətimizi, adət-ənənələrimizi əks etdirən müxtəlif guşələr, kompozisiyalar qurulmuş, maraqlı suvenirlər nümayiş etdirilmiş, milli geyimlərimiz nümayiş etdirilmiş, habelə milli rəqs qruplarının rəqsləri olmuşdur.

**- Samir müəllim, bildiyiniz kimi, nəşr layihələri də təbliğat işində xüsusi əhəmiyyət daşıyır. Özbək dilində Azərbaycan Cümhuriyyəti haqqında hansı nəşr layihələrini planlaşdırırsınız?**

– Təbii ki, qeyd olunan tədbirlərlə yanaşı, biz özbək dilində kitabların çapına xüsusi önəm veririk. Artıq Özbəkistanda hər iki dil üzrə xüsusi tərcüməçilər komandası formalaşıb və hər il Azərbaycan Mədəniyyət Mərkəzinin sifarişi ilə çoxsaylı nəşrlər özbək dilinə tərcümə olunaraq Daşkənddə çap olunur.

Biz bu il azərbaycanlı şair, yazıçı və dramaturq, ədəbiyyatımızda romantizm ədəbi cərəyanının əsas nümayəndəsi, Azərbaycan Xalq Cümhuriyyəti dövrünün tanınmış mütəfəkkiri Hüseyn Cavidin əsərlərinin özbək dilinə tərcüməsini başa çatdırdıq və yaxın günlərdə layihəmizlə Daşkənddə Hüseyn Cavidin "Seçilmiş əsərləri" özbək dilində işıq üzü görəcəkdir. Bu işdə, əlbəttə, AZƏRTAC da bizə təşkilati dəstək göstərib.

Bununla yanaşı, fevral ayında Özbəkistanda səfərdə olan Bakı Dövlət Universitetinin türkologiya kafedrasının müdiri, professor Ramiz Əskərlə görüşümüzdə razılaşdıq ki, bu ilin "Xalq Cümhuriyyəti ili" elan edilməsi ilə əlaqədar Azərbaycan Mədəniyyət Mərkəzinin növbəti layihəsi ilə "Azərbaycan Xalq Cümhuriyyəti dövrü və müstəqil Azərbaycan ədəbiyyatı" adlı nəşrin özbək dilinə tərcüməsi və kitab şəklində Daşkənddə çapını həyata keçirək. Bildiyimiz kimi, Ramiz Əskər "Azərbaycan Xalq Cümhuriyyəti dövrü ədəbiyyatı" kitabının müəllifidir.



Mədəniyyət Mərkəzimizin növbəti layihəsi üzrə Azərbaycan Demokratik Cümhuriyyətinin 100 illiyi münasibətilə "Azərbaycan-Özbək, Özbək-Azərbaycan" lüğətinin hazırlanmasına start vermişik. Artıq bu istiqamətdə azərbaycanlı və özbək mütəxəssislərlə birgə iş aparılır. Ümid edirəm ki, ilin sonunda tarixdə ilk dəfə olaraq bu layihəni də dövlətimizin dəstəyi sayəsində həyata keçirəcəyik.

**- Mətbuat cəmiyyətin güzgüsüdür. Müasir dövrdə ən böyük təbliğat vasitələrindən olan mətbuatda – Özbəkistan mətbuatında Azərbaycan Xalq Cümhuriyyətinin təbliği istiqamətində hansı işlər gedir?**

- 2013-cü ildən Azərbaycan Mədəniyyət Mərkəzi ulu öndər Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar hər il Özbəkistan mətbuatı, jurnalistləri arasında Azərbaycan haqqında "İlin ən yaxşı məqaləsi" müsabiqəsini keçirir. Qeyd edim ki, məqalə müsabiqəsindən öncə özbək mətbuatında Azərbaycan haqqında çox az sayda yazı verilirdi.

Müsabiqə elan olunduqdan sonra hər il ölkəmiz haqqında 250-dən artıq məqalə işıq üzü gördü.

Bu il Mədəniyyət Mərkəzi olaraq elan etdiyimiz müsabiqənin 3 nominasiyasından biri "Первая Демократическая Республика в Мусульманском мире - Азербайджанская Демократическая Республика – 100" adlı nominasiyadır. Artıq bu mövzuda xeyli məqalələr dərc olunur və işlər uğurla davam etdirilir.

Planlarımız çoxdur. İnanıram ki, dövlətlərimizin uğurlu siyasəti ilə qarşımıza qoyduğumuz məqsədlərə nail olacağıq, dostluğumuz və əməkdaşlığımız istiqamətində yeni-yeni nailiyyətlər əldə edəcəyik. ❖

Zöhrə Əliyeva